**Imanli M.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.98-102**
**UDC: 342.1**

# Was there a resolution on the Sarsang reservoir in the Executive Committee of the Parliamentary Assembly of the Council of Europe? But then how to implement?

**Abstract**: The PACE Executive Committee approved the draft resolution on the humanitarian disaster that could create a dangerous situation in the Sarsang reservoir located in the occupied territory of Azerbaijan and sent it to the Bureau for consideration. The Executive Committee also recommended the Bureau to send the draft resolution to the Committee on Social Affairs, Health and Sustainable Development for the appointment of a rapporteur. On the initiative of an Azerbaijani deputy, this draft resolution was previously presented with the signatures of 45 deputies representing 18 European countries.

In the document, the Assembly strongly condemned the illegal blockade of the water supply and irrigation system located in the occupied territories of Azerbaijan by Armenia, which violates the main principles of international law, and considered the abuse of such power to be an inhuman act by Armenia. But what's the use? So the Armenian fascists had to bow down only to the might of the Azerbaijani army.

**Keywords:** PACE; international law; international organization; ecolocigal status; UN General Assembly; environmental disaster; ecological balance; occupied territories; radioactive waste; natural resources.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, 2015, 63 p. (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Baku, 2017, 472 p. (in Azerbaijani).
3. Commentary on the Criminal Code of the Republic of Azerbaijan. Baku, 2016, 670 p. (with additional changes) (in Azerbaijani).
4. Resolutions of the UN Security Council regarding Nagorno-Karabakh. Available at: https://en.wikipedia.org/wiki/ (accessed: 05.06.2022).
5. Elkhan Suleymanov "The PACE rapporteur on Sarsang will visit Azerbaijan on December 14". Available at: http://sarsang.org/xeber/853-elkhan-sleymanov-srsngl-bal-apa-mruzisi-dekabrn-14-d-azerbayjana-sfr-edek.html (accessed: 05.06.2022) (in Azerbaijani).
6. Imanov F.A., Alakbarov A.B. Modern changes and integrated management of water resources of Azerbaijan. Baku: Muterrecim Publ., 2017, 297 p. (in Azerbaijani).
7. Mammadov G.S. "Ecological evaluation of Azerbaijani lands", Baku, Elm Publ., 1998, 282 p. (in Azerbaijani).

♦ **Imanli Muhammad Naghi oglu** - Doctor of Law, Professor, Head of the "Legal Support of State Security" Deparment of the public legal entity "Institute of Law and Human Rights" under the public legal entity "Center for Legal Expertise and Legislative Initiatives" (Azerbaijan). E-mail: mahammad_imanli@mail.ru

**İmanlı M.N.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.98-102**
**UOT: 342.1**

# Avropa Şurası Parlament Assambleyasının İcraiyyə Komitəsində Sərsəng su anbarı ilə bağlı qətnaməsi olmuşdur? Bəs o zaman icrası necə?

**Xülasə:** AŞPA İcraiyyə Komitəsi "Azərbaycanın işğal olunmuş ərazisində yerləşən Sərsəng su anbarında təhlükəli vəziyyət yarada biləcək humanitar fəlakətə dair qətnamə layihəsini bəyənərək baxılmaq üçün Büroya göndərib. İcraiyyə Komitəsi habelə Büroya qətnamə layihəsini məruzəçi təyin olunması üçün Sosial məsələlər, sağlamlıq və dayanıqlı inkişaf Komitəsinə göndərməyi tövsiyyə edib. Azərbaycanlı Millət vəkilinin təşəbbüsü ilə daha əvvəl bu qətnamə layihəsi 18 Avropa ölkəsini təmsil edən 45 deputatın imzası ilə təqdim olunub [1].

Sənəddə Assambleya beynəlxalq hüququn əsas prinsiplərini pozan Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən su təchizatı və suvarma sisteminin qanunsuz blokadasını kəskin surətdə qınamış və belə gücdən sui-istifadəni Ermənistan tərəfindən qeyri-insani əməl hesab etmişdi. Amma nə fayda? Deməli erməni faşistləri ancaq Azərbaycan ordusunun qüdrəti qarşısında baş əyməli imiş.

**Açar sözlər:** AŞPA; beynəlxalq hüquq; beynəlxalq təşkilat; ekoloji vəziyyət; BMT Baş Məclisi; ekoloji fəlakət; ekoloji tarazlıq; işğal olunmuş ərazilər; radioaktiv tullantılar; təbii ehtiyatlar.

Ali Baş Komandanımızın şəxsində qəbul etdiyi müdrik qərarlar nəticəsində müzəffər ordumuz düşməni həmin qətnaməni yerinə yetirməyə nəyin ki, məcbur etdi, heç onlardan əsər-əlamət belə qalmadı.

AŞPA-indi sən beynəlxalq təşkilat kimi hansı vəziyyətdə olduğunu bilirsən. Hətta qətnaməyə sizə hüquq verən sənədə uyğun terrorçu dövləti təşkilatın sıralarından xaric etməli idin.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilər qiymətli ağac növlərini qırıb, yandırıb və talamışdır. Azərbaycan çaylarını çirkləndirərək ölü zonaya çevirmişlər. Azərbaycanın möhtəşəm haqlı qələbəsindən sonra Dağlıq Qarabağda ekoloji vəziyyət böhranlıdır və haqlı olaraq dünyaya səslənir. Azərbaycan tərəfi erməni separatçıları tərəfindən işğal zamanı ərazilərin ekoloji vəziyyəti haqqında məlumata artıq malik olması və bunun nəticəsində qələbədən sonra rahat işlər görülməyə başlanılmışdır. Buna görə də 6 noyabr - BMT-nin müharibələr və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması üzrə Beynəlxalq gün kimi qeyd olunsa da Azərbaycan əraziləri işğal olunmuş və işğalçıların daimi ekoloji təsiri altında olan ölkə kimi bir daha beynəlxalq ictimaiyyətin diqqətini silahlı münaqişələr zamanı ətraf mühitə vurulan zərər probleminə cəlb edilmişdir. Nəticədə ekoloji sistemlərin və təbii ehtiyatların vəziyyəti uzun

[♦] **İmanlı Məhəmməd Nağı oğlu** - hüquq elmləri doktoru, professor, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin nəznində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsin "Dövlət Təhlükəsizliyinin Hüquqi Təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail: mahammad_imanli@mail.ru

müddət pisləşərək, bir çox dövlətlərə və gələcək nəsillərə dağıdıcı təsir göstərir. 6 noyabrda BMT-nin müharibələr və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması üzrə Beynəlxalq gününün keçirilməsi qərarı BMT Baş Məclisi tərəfindən 5 noyabr 2001-ci ildə BMT Minillik Bəyannaməsinə istinadən qəbul olunmuşdur. Bu sənəddə ətraf mühitin mühafizəsi və gələcək nəsillərin rifahı naminə qorunub saxlanması üçün tədbirlər görülməsinin zəruruliyi vurğulanır [5].

Lakin Erməni xuntası bu bəyannaməyə də məhəl qoymamışdır.

Nəzarətsiz ekologiya. BMT Baş Məclisi tərəfindən 5 noyabr 2001-ci ildə BMT Nizamnaməsinin 4-cü maddəsinə istinadən qəbul olunmuş 56/4 saylı qətnamədə göstərilir ki, bütün üzv-dövlətlər beynəlxalq münasibətlərində hər hansı dövlətin ərazi bütövlüyünə və müvafiq surətdə təbii ehtiyatlarına qarşı güclə, yaxud onun tətbiqi ilə qorxutmadan imtina etməlidir. Bu gün Qarabağda erməni vəhşilərinin törətdikləri mənfur cinayətlərdən sonra ekoloji tarazlıq sahəsində vəziyyət olduqca pisləşmişdir. Artıq Qarabağımızın azad edilməsindən sonra onun ekologiyasının yaxşılaşdırılması üçün uzun illər Azərbaycanın ətraf mühitinə vurulan zərəri beynəlxalq məhkəmələr erməni dövlətinə ödədməlidir. Başqa yolu yoxdur [2].

Azərbaycanın nəzarətindən kənarda qalan ərazilərdə ekoloji vəziyyət həm də onunla kəskinləşmişdir ki, 2006-cı ilin iyunundan etibarən ermənilər bu ərazilərdə məqsədyönlü şəkildə yanğınlar törədmiş, o cümlədən qoruq zonalarında meşə sahələrini məhv etmişlər. Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının işğal olunmuş kəndləri yandırılmışdır. Ermənilərin törətdikləri yanğınlar Azərbaycanın nəzarəti altında olan ərazilərə də keçmişdir. Təkcə 2006-cı ildə 20 günlük yanğınlar nəticəsində cəmi 132,2 kv. km ərazi yandırılmışdır. Zəngilan rayonunda Topmeşədə yetişən Şərq çinarı, qiymətli qoz ağacı növləri kütləvi surətdə məhv edilmişdir. Dünyada ikinci və Avropada birinci Şərq çinarı meşəsi də məhv edilmişdir. Tikinti və mebel istehsalı üçün yararlı ağaclar qırılaraq Ermənistana aparılmışdır və başqa ölkələrə, o cümlədən İrana satılmışdır. İşğal müddətində ermənilər dəfələrlə Bartaz, Vəcnəli, Daşbaşı və Ləşkər meşələrində yanğınları törətmişlər. Bu meşə massivlərini əhatə edən ümumi sahəsi 55 ha olan 40-50 yaşlı qoz ağacları qırılmışdır. Top və Şükürataz meşə massivlərində 350-400 yaşlı palıd ağacları məhv edilmişdir. İşğal zamanı bizim torpaqlarda narkotik bitkilər becərilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində 2007-ci ildə törədilən yanğınların vurduğu zərər 25 milyon dollar, 2006-cı ildə törədilən yanğınların vurduğu zərər isə cari məzənnə üzrə $193 milyon məbləğində qiymətləndirilmişdir. Hal-hazırda yaradılmış xüsusi ekspertlər və mütəxəssislər tərəfindən tədqiqat işləri dəymiş ziyanı yenidən hesablayır [3, s. 51].

Azərbaycan hökuməti dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətini Qarabağda və işğal olunmuş ərazilərdə fəlakətli ekoloji vəziyyətə cəlb etmiş, lakin nəticə olmamışdır. Çünki, dünya ikili standartlarla idarə olunur.

Yanğınların artması və regionun ekologiyasına böyük zərərin vurulması ilə əlaqədar qəbul etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" qətnaməsində Baş Məclis yaranmış vəziyyətdən ciddi narahatlığını ifadə edərək, yanğınların söndürülməsi və onların dağıdıcı nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz ekoloji əməliyyatını həyata keçirilməsinin zəruriliyini vurğulamışdır. Yanğınlara qarşı mübarizə istiqamətində mümkün tədbirlər görülmüşdür. Yanğınlarla bağlı məsələlər Azərbaycan nümayəndə heyəti tərəfindən AŞBA sessiyalarında da qaldırılmışdır. Qəsdən törədilən yanğınların qısamüddətli və uzunmüddətli təsirinin və bununla əlaqədar yaranmış təhlükəli ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə ATƏT çərçivəsində qiymətləndirmə missyası və beynəlxalq ekspertlərdən ibarət komissiya yaradılmışdır.

Təəssüf ki, elə zamanda erməni tərəfi missiya başa çatdıqdan sonra qəbul olunmuş birgə tədbirlər haqqında qərarı yerinə yetirməmiş, heç ona məhəl belə qoymamışdır. İşğal olunmuş torpaqlarda yanğınlar 2007, 2008 və 2009-cu illərdə davam etdirilmişdir. Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesabatında bildirilir ki, 2009-cu il iyulun 20-də Ağdam və Ağdərə rayonlarının işğal olunmuş dağ massivlərində Ermənistan silahlı qüvvələrinin törətdiyi yanğın böyük sürətlə yayılmışdır. Alovu təkcə Ağdam, Ağcabədi, Bərdə və s.-də deyil, həm də daha uzaq rayonlarda yüksəkliklərdən müşahidə etmək mümkün olmuşdur [4].

Çayların çirkləndirilməsi. Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi bildirir: "Məlumdur ki, təbii ərazi elementləri bir-biri ilə qarşılıqlı təsirdədir, onun bir elementində baş verən dəyişikliklər zəncirvarı reaksiya üzrə digər elementlərə ötürülür. Hazırda Qarabağ ətrafında Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Füzuli və Ağdam rayonlarının işğaldan azad olunmuş ərazilərində torpaqlar becərilmir, Düşmən tərəfindən ərazilərin minalanması, bu da artıq böyük ekoloji fəlakətə götirib çıxarmışdır"**.** Beləliklə, yanğınlardan başqa, separatçıların hərəkətləri miqyaslı ekoloji problemlərlə nəticələnmişdir. Demək olar ki, Ermənistandan başlanan bütün çaylar sonradan ərazisində Kür və Araza qovuşaraq sonradan Xəzər dənizinə tökülür. Uzun illər boyunca Ermənistandan keçən Oxçuçay, Zəngi, Araz, Ağstafa və digər çayların sulan Azərbaycan çaylarını çirkləndirir. Nəticədə Ermənistan tərəfindən işğaldan azad olunmuş Zəngilan rayonu böyük ekoloji terrora məruz qalan zonaya çevrilmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Ermənistan tərəfindən müntəzəm surətdə rayonun çaylarına çirklənmiş sular axıdılır (gündə 2,1 min kubmetr). Çirklənmiş su sol qolu Oxçuçay vasitəsilə Araz çayına tökülür. Ermənistan ərazisində yerləşən Qaçaran mis-molibden və Qafan filizsaflaşdırma kombinatlarının kimyəvi cəhətdən çirklənmiş suları təmizlənmədən Sarazın sol qoluna axıdılır. Nəticədə çayın hövzəsi ölü zonaya çevrilir, çayın mikroflorası və faunası tam məhv edilmişdir [7, s. 57].

Ermənistan AES-in işlənmiş radioaktiv tullantılarının Azərbaycanın ərazilərində basdırılması haqqında məlumatlar mövcuddur. Buradan aydın olur ki, işğalın məhrumiyyətlərini insanlarla yanaşı, həm də ağır zərbəyə məruz qalan Azərbaycan təbiəti də çəkir. İşğal olunmuş ərazilərdə müvəqqəti olduqlarını başa düşən ermənilər faydalı qazıntı yataqlarını, təbii ehtiyatları vəhşicəsinə talan edirlər. Çoxlu mineral su, texniki materiallar və s. mənimsənilir. Erməni işğalı altında olan qoruqlarda qoruq rejimi tamamilə pozulmuşdur [6, s. 37].

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, 2015. - 63 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı, 2017. - 472 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. - Bakı, 2016. - 670 s. (əlavə dəyişikliklərlə)
4. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qətnamələri. [Elektron resurs]. URL: https://az.wikipedia.org/wiki/ (müraciət tarixi: 05.06.2022).
5. Elxan Süleymanov "Sərsənglə bağlı AŞPA məruzəçisi dekabrın 14-də Azərbaycana səfər edəcək". [Elektron resurs]. URL: http://sarsang.org/xeber/853-elxan-sleymanov-srsngl-bal-apa-mruzisi-dekabrn-14-d-azerbaycana-sfr-edek.html (müraciət tarixi: 05.06.2022).
6. İmanov F.Ə., Ələkbərov A.B., Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi. - Baki: Mütərcim, 2017. - 297 s.

7. Məmmədov Q.Ş. "Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi". – Bakı: Elm, 1998. - 282 s.

**Иманли М.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.98-102**
**УДК: 342.1**

## Была ли резолюция по Сарсангскому водохранилищу в Исполнительном комитете Парламентской ассамблеи Совета Европы? Но как тогда реализовать?

**Аннотация:** Исполнительный комитет ПАСЕ одобрил и направил на рассмотрение Бюро проект резолюции о гуманитарной катастрофе в Сарсангском водохранилище, расположенном на оккупированной территории Азербайджана. Исполнительный комитет также рекомендовал Бюро направить проект резолюции в Комитет по социальным вопросам, здравоохранению и устойчивому развитию для назначения докладчика. По инициативе азербайджанского депутата этот проект постановления ранее был представлен за подписями 45 депутатов, представляющих 18 стран Европы.

В документе Ассамблея решительно осудила незаконную блокаду Арменией системы водоснабжения и ирригации, расположенной на оккупированных территориях Азербайджана, что нарушает основные принципы международного права, и сочла злоупотребление такой властью бесчеловечным актом со стороны Армении. Но какая польза? Так что армянским фашистам приходилось преклоняться только перед мощью азербайджанской армии.

**Ключевые слова:** ПАСЕ; международное право; международная организация; Экологическая ситуация; Генеральная Ассамблея ООН; экологическая катастрофа; экологическое равновесие; оккупированные территории; радиоактивные отходы; природные ресурсы.

### Библиография

1. Конституция Азербайджанской Республики. - Баку, 2015. – 63 с. (на азерб. яз.).
2. Уголовный кодекс Азербайджанской Республики. - Баку, 2017. – 472 с. (на азерб. яз.).
3. Комментарий к Уголовному кодексу Азербайджанской Республики. - Баку, 2016. – 670 с. (с доп. изменениями) (на азерб. яз.).
4. Резолюции Совета Безопасности ООН по Нагорному Карабаху. [Электронный ресурс]. URL: https://az.wikipedia.org/wiki/ (на азерб. яз.) (дата обращения: 05.06.2022).
5. Эльхан Сулейманов «14 декабря в Азербайджан посетит докладчик ПАСЕ по Сарсангу» [Электронный ресурс]. URL: http://sarsang.org/xeber/853-elkhan-sleymanov-srsngl-bal-apamruzisi-dekabrn-14-d-azerbayjana-sfr-edek.html (на азерб. яз.) (дата обращения: 05.06.2022).
6. Иманов Ф.А., Алекперов А.Б. Современные изменения и комплексное управление водными ресурсами Азербайджана. - Баку: Мютереджим, 2017. - 297 с. (на азерб. яз.).
7. Мамедов Г.С. Экологическая оценка азербайджанских земель. – Баку: Эльм, 1998. - 282 с. (на азерб. яз.).

♦ **Иманли Мухаммад Наги оглы** - доктор юридических наук, профессор, зав. отделом «Правовое обеспечение государственной безопасности» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). E-mail: mahammad_imanli@mail.ru